USAID UNITY THROUGH DIVERSITY PROGRAM
USAID-ის პროგრამა ერთიანობა მრავალფეროვნებაში

İKINCI LOT

# İQTISADI INTEQRASIYA QRANTLARI

Məlumat kartı

## İQTISADI INTEQRASIYA QRANTLARI

BMT-nin Gürcüstan Assosiasiyası (UNA-Georgia) ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən dəstəklənən "Müxtəliflik Birlikdədir" proqramı çərçivəsində Mülki və İqtisadi İnteqrasiya üzrə Qrant Proqramını elan edir.

Qrant proqramının məqsədi etnik və dini azlıqların milli, yerli səviyyədə ictimai həyata daha yaxşı qoşulması, ölkədə ictimai birliyə təşviq və qarşılıqlı faydalı sosial, mülki və iqtisadi əlaqələrin möhkəmləndirilməsidir.

Qrant müsabiqəsi iki mərhələdən ibarətdir:

1. Vətəndaş inteqrasiyası qrantları;
2. İqtisadi inteqrasiya qrantları.

İkinci lot üzrə qrant proqramının məqsədi etnik və dini azlıqların nümayəndələrinə sahibkarlıq və biznesin inkişafında dəstək olmaq, etnik, dini azlıqların məskunlaşdığı regionlarda dövlət maliyyəsi və xidmətlərini daha əlçatan etmək, beləliklə, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdır.

## İQTISADI INTEQRASIYA ÇƏRÇİVƏSİNDƏ QRANT PROQRAMININ ƏSAS ISTIQAMƏTLƏRI

- Etnik və dini cəhətdən müxtəlif regionlarda mikro, kiçik və orta sahibkarlara maliyyə və texniki dəstək;
- İqtisadi dəyərin yaradılması silsiləsində yeni əlaqələrin qurulmasına kömək etmək və daxili bazarın iqtisadi inteqrasiyasını təkmilləşdirmək;
- Azlıqların məskunlaşdığı regionlarda biznes fəaliyyətinin genişləndirilməsində maraqlı olan mikro, kiçik və orta müəssisələrin (MSME) birgə maliyyələşdirilməsi - təchizat zəncirlərinin şaxələndirilməsinin təşviqi, ticarət infrastrukturunun təkmilləşdirilməsi və etnik, dini azlıqların nümayəndələri, xüsusilə də gənclər və qadınlar üçün yeni iş yerlərinin yaradılması.
- Etnik azlıqların məlumatının artırılması və kiçik və orta biznesi dəstəkləyən dövlət proqramları və xidmətlərindən istifadənin yaxşılaşdırılması üçün konsaltinq/ məsləhətləşmə xidmətləri ("Gürcüstanda istehsal et"; "Kənd İnkişaf Agentliyi", "GITA").
- Regional startaplara dəstək - pre-akselerasiya və akselerasiya proqramları, biznes inkubatorlar və s.
- Regional sahibkarlar üçün biznesin inkişafı bacarıqlarının və maliyyə savadlılığının təkmilləşdirilməsinə dəstək;
- Etnik azlıqların məlumatlandırılması və onların peşəkar təhsil sisteminə qolulmasına dəstək.
- Etnik azlıq tələbələrinin ehtiyaclarını daha yaxşı təmin etmək üçün peşə təhsili müəssisələrinin dəstəklənməsi; Onların peşə təhsili sisteminə cəlb edilməsinin

təkmilləşdirilməsi üçün yeni mexanizmlərin işlənib hazırlanması.

- Azlıqların yaşadığı regionlarda həm yerli iqtisadiyyata, həm də azlıq nümayəndələrinə fayda verəcək biznes assosiasiyalarının yaradılmasını dəstəkləmək.
- Hədəf regionlarda peşəkar təhsil müəssisələri və biznes assosiasiyaları arasında birgə konsaltinq/məsləhətləşmə platformalarının yaradılması.
- Peşə məktəblərində yerli əmək bazarının tələblərinə uyğun qısa və uzunmüddətli proqramların tətbiqinə köməklik göstərmək.
- Mentorluq və şəbəkələşmə – təcrübə mübadiləsini və azlıqların sahibkarları və digər regionlardan olan sahibkarlar arasında yeni iqtisadi və ticarət əlaqələrinin yaradılmasını asanlaşdırmaq.

## MALIYYƏLƏŞDIRMƏ VƏ DIGƏR DETALLAR

- Qrant proqramının ümumi büdcəsi 4,000,000 ABŞ dollarıdır və bir təşkilat / Şirkət üçün qrant məbləğinin göstəricisinin ən yuxarı həddi 120.000 ABŞ dollarıdır. Müstəsna və əsaslı hallarda BMT-nin Gürcüstan Assosiasiya maliyyələşdirmənin yuxarı həddini artıra bilər.
- Biznes/startapların maliyyələşdirməsi üçün əsas tələblərdən biri budur: Nağd pul töhfələri, kreditlər daxil olmaqla biznes tərəfdən 50% qarşılıqlı maliyyələşdirmə və digər mənbələrdən (o cümlədən dövlət proqramları) qarşılıqlı maliyyələşdirmə.
- Natura şəklində  qarşılıqlı maliyyələşdirmə hesab edilməyəcək. BMT-nin Gürcüstan Assosiasiyası etnik və dini azlıqdan olan gənc və ya qadın sahibkar ərizəçi ilə bağlı qarşılıqlı iştirak hissəsini azaltmaq, natura şəklində qarşılıqlı maliyyələşdirməyə icazə vermək və ya ərizəçidən heç bir şəkildə töhfə verməməsini istəmək hüququna malikdir.
- Qrant proqramı çərçivəsində maliyyələşdirilən bütün layihələrin həyata keçirilməsinin maksimum müddəti 18 aydır.
- Aşağıdakı regionlar layihələrin həyata keçiriləcəyi əsas yer hesab olunur:

  *- Kvemo Kartli (Ninotsminda, Tsalka, Qardabani, Dmanisi, Marneuli)*
  *- Samtsxe-Cavaxeti (Axalkalaki, Axaltsixe, Ninotsminda)*
  *- Kaxeti (Axmeta, Pankisi, Saqareco, Kvareli, Laqodexi)*
  *- Dağlıq Acara (Şuaxevi, Keda, Xulo)*

- Ərizəçidən asılı olmayaraq qrant proqramı çərçivəsində alt-qrantlara icazə verilməyəcək, ancaq ortaqlı ərizəçi ilə birgə ərizə verə bilər; Aparıcı ərizəçi üçün müəyyən edilmiş tələblərə uyğunluq meyarlara cavab verməlidir.
- Aparıcı ərizəçi eyni anda yalnız bir ərizə təqdim edə bilər və onun ərizəsinin müzakirə prosesi zamanı o, artıq başqa layihədə birgə ərizəçi ola bilməz.

## KIMLƏR IŞTIRAK EDƏ BILƏR?

- Mikro, kiçik və orta müəssisələr, startaplar, sosial müəssisələr;
- Maliyyə institutları və digər iri müəssisələr;
- Biznes assosiasiyaları;
- Qeyri-hökumət təşkilatları.

## ƏRIZƏÇININ MÜRACIƏT PROSESI ZAMANI DƏSTƏYƏ EHTIYACI VARSA

- Potensial donorların imkanlarını gücləndirmək məqsədilə BMT-nin Assosiasiyası ildə ən azı iki dəfə qrantların yazılması, maliyyə idarəçiliyi, daxili nəzarət, monitorinq və qiymətləndirmə üzrə seminarlar təşkil edir. Qeyd olunan tədbirlərin tarixləri və gündəliyiBMT-nin Gürcüstan Assosiasiyasının internet saytında (www.una.ge) dərc olunacaq və maraqlanan bütün təşkilatlar üçün açıq olacaq.
- Bundan əlavə, BMT-nin Gürcüstan Assosiasiyası və proqram həmkarları seçilmiş ərizəçilər üçün kouçinqlər təqdim edirlər ki, buna biznes planın hazırlanması, dövlət və özəl mənbələrdən qarşılıqlı maliyyələşdirmənin əldə edilməsinə kömək etmək, ehtiyac olduqda digər məsləhətləşmələr də daxil ola bilər.

## MÜRACIƏTLƏRIN QƏBULU:

- Qrant müraciətləri açıq qapı əsasında qəbul edilir, BMT-nin Gürcüstan Assosiasiyası qrant seçim qrupu/komissiyası ilə birlikdə layihə müraciətlərini sistematik şəkildə nəzərdən keçirir.
- Seçim prosesi iki mərhələ olaraq həyata keçirilir.
- Ərizəçi biznesdə yenidirsə ilk addım biznes üçün xüsusi ərizə təqdim etmək, ikinci addım isə ətraflı biznes planı təqdim etməkdir.
- Ərizəçi vətəndaş təşkilatıdırsa, birinci mərhələdə layihənin konsepsiyasını (əlavəsiz maksimum 5 səhifə), ikinci mərhələdə isə tam ərizəni (əlavəsiz maksimum 15 səhifə) təqdim etməlidir.
- Hər iki mərhələ üçün doldurula bilən formaları BMT-nin Gürcüstan Assosiasiyasının saytında əldə edə bilərsiniz: *QR koda baxın*
- Bütün qrant ərizələri electron halda, el-poçt vasitəsi ilə una@una.ge ünvanına təqdim edilməlidir və mövzu hissəsində “Georgia Integration Grants Facility” qeyd edilməlidir.